AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması Qaydası”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 1.4.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 879 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 11, maddə 1099; 2026, № 5 (II kitab), maddə 465) ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları”nın 2.16-cı bəndinə “və qaydada” sözlərindən sonra “, “Texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən sınaq protokollarının tanınması halı istisna olmaqla,” sözləri əlavə edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 23 ” “ oktyabr ” 2026-cı il

№ 352

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 23 ” oktyabr tarixli
352 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

Texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması

Q A Y D A S I

1. Ümumi müddəalar

1.1. Bu Qayda “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun 13.11-ci maddəsinə uyğun olaraq texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması qaydalarını müəyyən edir.

1.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə birbaşa tanınma nəzərdə tutulduğu hallar istisna olmaqla, xarici mənşəli uyğunluq sənədləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq onların həqiqiliyi və müqavilə şərtlərinə uyğunluğu müəyyən edilməklə tanınır. Beynəlxalq müqavilədə nəzərdə tutulmuş birbaşa tanınma hallarında təsərrüfat subyekti tərəfindən xarici mənşəli uyğunluq sənədi uyğunluğu qiymətləndirən qurumlara deyil, bilavasitə gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanına təqdim edilir.

1.3. Xarici mənşəli uyğunluq sənədləri bu Qayda ilə müəyyən edilmiş qaydada tanınmadıqda və ya bu cür sənədlər olmadıqda, təsərrüfat subyekti həmin malların idxalından əvvəl onların müvafiq milli texniki reqlamentə uyğunluğunun qiymətləndirilməsini təmin etməlidir.

1.4. Bu Qayda Azərbaycan Respublikasına idxal edilən barəsində milli texniki reqlamentlər və istinad edilmiş standartlar qəbul olunmuş mallara şamil edilir.

1.5. Tanınma uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.

1.6. Tanınmış xarici mənşəli uyğunluq sənədləri həmin sənədlərdə qeyd olunan mal vahidinə, mal partiyasına və ya seriyalı istehsala şamil edilir.

1.7. Bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş halda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları”na əsasən uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin tərtibi zamanı Azərbaycan Respublikası ərazisində malın müvafiq texniki reqlamentin tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə müayinəsinin, tədqiqlərinin və ya sınaqlarının aparılması üçün tələb olunan sınaq laboratoriyası olmadıqda xarici mənşəli sınaq nəticələrinin tanınması həmin sınaq laboratoriya nəticələrini təqdim etmiş xarici dövlətlərin sınaq laboratoriyasını akkreditasiya edən

müvafiq akkreditasiya orqanının Azərbaycan Respublikasının milli akkreditasiya orqanının da üzvü olduğu beynəlxalq və ya regional akkreditasiya təşkilatına üzvü olduğu və (və ya) uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyətin müvafiq növləri ilə bağlı belə təşkilatla qarşılıqlı tanınma sazişinin mövcudluğu halında mümkündür.

2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **təsərrüfat subyekti** - istehsalçı, idxalçı və ticarət nümayəndəsi (agent);

2.1.2. **uyğunluğu qiymətləndirən qurum** - "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilmiş, malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının texniki reqlamentdə müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsini təmin edən təşkilatlar, hüquqi və fiziki şəxslər;

2.1.3. **xarici mənşəli uyğunluq sənədi** - xarici dövlətlərdə verilmiş və idxal olunan malların təhlükəsizliyinə dair məcburi tələbləri müəyyənləşdirən xarici texniki reqlamentlərin və ya digər xarici texniki normativ hüquqi aktın tələblərinə uyğunluğunu təsdiq edən müəyyən formalı sənəd;

2.1.4. **ərizəçi** - uyğunluğun qiymətləndirilməsinin aparılması üçün malları təqdim etmiş təsərrüfat subyekti;

2.1.5. **tanınma** - xarici mənşəli uyğunluq sənədlərinin həqiqiliyinin və müqavilə şərtlərinə uyğunluğunun müəyyən edilməsi.

2.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan digər anlayışlar "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

3. Xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatlarının, uyğunluq bəyannamələrinin və sınaq protokollarının) tanınması

3.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə birbaşa tanınma nəzərdə tutulduğu hallar istisna olmaqla, uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin tanınması üçün təsərrüfat subyekti malın idxalından əvvəl özünün sərbəst seçdiyi uyğunluğu qiymətləndirən quruma bu Qaydanın 1 və 2 nömrəli əlavələrinə, həmçinin "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq ərizə ilə müraciət edir.

3.2. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

3.2.1. ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyi olduqda, hüquqi şəxsin dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin surəti;

3.2.2. ərizəçi fiziki şəxs olduqda şəxsiyyət vəsiqəsinin surəti;

3.2.3. fiziki şəxsin uçotu haqqında şəhadətnamənin surəti;

3.2.4. xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin) əsli və ya onların təsdiq edilmiş surəti (sənədin surəti sertifikatın əslinin sahibinin, istehsalçının səlahiyyətli nümayəndəsinin və ya sənədi vermiş qurumun möhürü ilə təsdiq edilə bilər);

3.2.5. texniki reqlamentin və ya mala dair məcburi tələbləri ehtiva edən digər xarici texniki normativ hüquqi aktın, eləcə də xarici normativ sənədlərin (normativ sənəd beynəlxalq və (və ya) dövlətlərarası standartlar kateqoriyasına daxil edilmədikdə və ya standartlaşdırma üzrə dövlət fondunda olmadıqda) surəti;

3.2.6. idxal olunan mallara dair müşayiət sənədləri (nəqliyyat qaiməsi və hesab-faktura (invoys);

3.2.7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq tələb olunan digər sənədlər;

3.2.8. ərizəçini səlahiyyətli nümayəndə təmsil etdikdə onun səlahiyyətini təsdiq edən etibarnamənin əsli və şəxsiyyətini təsdiq edən sənədin surəti.

3.3. Bu Qaydanın 3.2-ci bəndində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

3.4. Uyğunluq bəyannaməsinin tanınması üçün ərizəyə əlavə olaraq istehsalçının məcburi tələblərə uyğun mal istehsal etmək üçün sabit şəraitə malik olmasını təsdiq edən aşağıdakı sənədlər əlavə olunmalıdır:

3.4.1. sınaqların keçirilmə dövriliyinə riayət edilməsini sübut edən istehsalçı və ya akkreditasiya edilmiş digər sınaq laboratoriyalarında aparılmış malın sınaqlarına dair ən son sınaq protokollarının surətləri;

3.4.2. xammala, materiallara və komponentlərə dair sınaq protokolları;

3.4.3. mal istehsalçısının keyfiyyətin idarə edilməsi sisteminin sertifikatı.

3.5. Uyğunluq bəyannaməsinin tanınması qanunvericiliklə müəyyən olunmuş qaydada uyğunluğunun bəyan edilməsi yolu ilə uyğunluğunun qiymətləndirilməsi aparıla bilən mal növlərinə münasibətdə həyata keçirilir.

3.6. Uyğunluğu qiymətləndirən qurum ərizəçi tərəfindən təqdim edilmiş ərizəni qəbul edir və həmin gün qeydiyyata alır. Uyğunluğu qiymətləndirən qurum ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə olunmuş sənədlərin bu Qaydanın 3.2-ci və 3.4-cü bəndlərinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə olunmuş sənədlərdə aradan qaldırılması mümkün olan və xarici mənşəli uyğunluq sənədinin (uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin) tanınmasından imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 2 (iki) iş günündən, tez korlanan mal üçün isə 1 (bir) iş günündən gec olmayaraq uyğunluğu qiymətləndirən qurum onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və tələblərə əməl olunmamasının hüquqi nəticələrini şəxsə izah edir. Ərizəçi həmin çatışmazlıqları

məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin) tanınması ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət xarici mənşəli uyğunluq sənədlərinin tanınması müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.7. Ərizəçi ərizədə və ona əlavə olunmuş sənədlərdə aşkar edilmiş çatışmazlıqları bu Qaydanın 3.6-cı bəndində qeyd olunan müddətdə aradan qaldırmadıqda, uyğunluğu qiymətləndirən qurum ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 1 (bir) iş günü müddətində ərizəçiyə təqdim edir və ya sifarişli poçt vasitəsilə göndərir.

3.8. Uyğunluğu qiymətləndirən qurum xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin) həqiqiliyini, tamlığını, düzgün doldurulmasını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinə uyğunluğunu yoxlamaq məqsədilə bu Qaydanın 3.2-ci və 3.4-cü bəndləri ilə müəyyən olunmuş qaydada təqdim edilmiş sənədləri və məlumatları təhlil edir, mala aid olmasını araşdırır, həmçinin malın müşayiət sənədinə, spesifikasiyasına və markalanmasına malın bütövlükdə uyğunluğunu təsdiq etmək üçün kifayət olan əlamətləri, parametrləri, göstəriciləri üzrə identifikasiyasını həyata keçirir.

3.9. Uyğunluğu qiymətləndirən qurum bu Qaydanın 3.6-cı bəndinə uyğun olaraq müddətin dayandırıldığı hallar istisna olmaqla, təqdim edilmiş ərizənin qeydiyyata alındığı tarixdən bu Qaydanın 3.8-ci bəndinə uyğun olaraq aparılan təhlilin və araşdırmanın nəticələri əsasında 3 (üç) iş günündən gec olmayaraq xarici mənşəli uyğunluq sənədinin tanınması və ya xarici mənşəli uyğunluq sənədinin tanınmasından imtina haqqında əsaslandırılmış qərar qəbul edir.

3.10. Xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatının və ya uyğunluq bəyannaməsinin) tanınması barədə qərar qəbul edildiyi halda, uyğunluğu qiymətləndirən qurum bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq qərarı tərtib edir, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları”na uyğun olaraq uyğunluq sertifikatı ilə rəsmiləşdirir və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin (bundan sonra – Agentlik) Keyfiyyət informasiya sistemində (bundan sonra – Keyfiyyət informasiya sistemi) bu sertifikatı yaradır və qeydiyyata alır. Texniki reqlamentdə başqa hal nəzərdə tutulmayıbsa, uyğunluq sertifikatı seriyalı istehsal olunan mallara 5 (beş) ildən çox olmayan müddətə verilir, mal partiya və ya mal vahidi üçün müddət müəyyən edilmir.

3.11. Uyğunluğu qiymətləndirən qurum Keyfiyyət informasiya sistemi vasitəsilə qeydiyyata aldığı gün xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarı və uyğunluq sertifikatını təsərrüfat subyektinə təqdim edir və ya sifarişli poçt vasitəsilə göndərir. Xarici mənşəli uyğunluq sənədinin tanınmasından imtina haqqında qərar qəbul

edildiyi tarixdən 1 (bir) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir və ya sifarişli poçt vasitəsilə göndərilir.

3.12. Seriyalı istehsala rəsmiləşdirilmiş xarici mənşəli uyğunluq sənədlərinin (uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin) qüvvədəolma müddəti başa çatdıqda və mal həmin sənədlərin qüvvədə olduğu müddətdə buraxıldıqda, bu xarici mənşəli uyğunluq sənədləri tanınmaq üçün təqdim edilə bilər.

3.13. Sınaq protokollarının tanınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na uyğun olaraq uyğunluq sertifikatının təqdim edilməsi və ya uyğunluq bəyannaməsinin tərtibi zamanı uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.

3.14. Ərizəçidə bu sənədlərin əsli və ya onların sınaqlarını keçirmiş xarici dövlətlərin akkreditasiya edilmiş sınaq laboratoriyasının və ya sınaq protokollarının əslini saxlayan təşkilatın möhürü ilə təsdiq edilmiş surətləri olduqda, sınaq protokolları tanınma üçün baxıla bilər.

3.15. Sınaq protokolları tanınarkən, protokolda qeyd olunan göstəricilərin və sınaq nəticələrinin onların Azərbaycan Respublikasının milli texniki reqlamentlərinin tələblərinə uyğunluğunun təhlili aparılır. Təhlilin nəticələrinə əsasən uyğunluğu qiymətləndirən qurum tanınma zamanı sınaq protokolunu nəzərə alır və ya 1 (bir) iş günü müddətində ərizəçiyə protokolu tanımaqdan imtinanın əsaslandırılmış səbəblərini göstərilməklə məktub göndərir.

3.16. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması məqsədilə xarici dildə olan bütün sənədlər Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcümə ilə təqdim edilir.

3.17. Tanınmış xarici mənşəli uyğunluq sənədinin sahibi həmin sənəddən yalnız özü istifadə edə bilər.

3.18. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması barədə qərarların qüvvəsi Azərbaycan Respublikasında aşağıdakı hallarda dayandırılır:

3.18.1. tanınmış xarici mənşəli uyğunluq sənədinin sahibi həmin sənədlərin tanınması barədə qərar qəbul etmiş uyğunluğu qiymətləndirən quruma ərizə təqdim etdikdə;

3.18.2. xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin qüvvəsi həmin dövlətlərdə dayandırıldıqda;

3.18.3. məhkəmənin müvafiq qanuni qüvvəyə minmiş qərarı olduqda.

3.19. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması barədə qərarlar Azərbaycan Respublikasında aşağıdakı hallarda ləğv edilir:

3.19.1. tanınmış xarici mənşəli uyğunluq sənədinin sahibi həmin sənədlərin tanınması barədə qərar qəbul etmiş uyğunluğu qiymətləndirən quruma ərizə təqdim etdikdə;

3.19.2. xarici dövlətlərdə verilmiş uyğunluq sənədləri həmin dövlətlərdə ləğv olunduqda;

3.19.3. xarici mənşəli uyğunluq sənədləri bu Qaydanın tələbləri pozulmaqla tanındıqda;

3.19.4. məhkəmənin müvafiq qanuni qüvvəyə minmiş qərarı olduqda.

3.20. Xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin qüvvəsi həmin dövlətlərdə dayandırıldığı, bərpa və ya ləğv edildiyi hallarda ixracatçı ölkə diplomatik kanallar vasitəsilə bu barədə məlumatları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunan hallarda və qaydada təqdim edir.

3.21. Xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin qüvvəsinin həmin dövlətlərdə dayandırıldığı, bərpa və ya ləğv edildiyi hallarda Agentlik bu barədə məlumatı aldığı gün həmin xarici mənşəli uyğunluq sənədlərinin tanınması barədə qərar qəbul etmiş uyğunluğu qiymətləndirən quruma göndərir.

3.22. Uyğunluğu qiymətləndirən qurum bu Qaydanın 3.18-ci (3.18.3-cü yarımbəndində qeyd olunan hal istisna olmaqla), 3.19-cu (3.19.4-cü yarımbəndində qeyd olunan hal istisna olmaqla), 3.21-ci bəndlərinə uyğun olaraq müvafiq məlumatı (sənədi) aldığı tarixdən 1 (bir) iş günü müddətində tanınmış xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın Azərbaycan Respublikasında qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə qərar qəbul edir və Keyfiyyət informasiya sistemi vasitəsilə xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın qüvvəsinin dayandırılmasını və ya ləğv edilməsini həyata keçirir. Bu Qaydanın 3.18.3-cü və 3.19.4-cü yarımbəndlərində nəzərdə tutulmuş məhkəmə qərarı qanunvericilikdə nəzərdə tutulmuş qaydada uyğunluğu qiymətləndirən quruma daxil olduğu tarixdən 1 (bir) iş günü müddətində əlavə inzibati qərar qəbul edilmədən birbaşa olaraq Keyfiyyət informasiya sistemində xarici mənşəli uyğunluq sənədinin statusunun (dayandırılması və ya ləğv edilməsi) dəyişdirilməsi yolu ilə icra edilir.

3.23. Xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərar qəbul etmiş uyğunluğu qiymətləndirən qurum bu Qaydanın 3.18.1-ci yarımbəndinə əsasən qüvvəsi dayandırılmış tanınmış xarici mənşəli uyğunluq sənədinin qüvvəsinin bərpasına dair sahibinin müvafiq ərizəsini, 3.18.2-ci yarımbəndinə əsasən qüvvəsi dayandırılmış tanınmış xarici mənşəli uyğunluq sənədinin bərpasına dair isə bu Qaydanın 3.21-ci bəndinə uyğun olaraq Agentlikdən müvafiq məlumatı aldığı tarixdən 1 (bir) iş günü müddətində xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın qüvvəsinin Azərbaycan Respublikasında bərpası barədə qərar qəbul edir və bununla əlaqədar Keyfiyyət informasiya sistemi vasitəsilə xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın Azərbaycan Respublikasında bərpasını həyata keçirir.

3.24. Uyğunluğu qiymətləndirən qurum Keyfiyyət informasiya sistemi vasitəsilə xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın qüvvəsinin dayandırılması, ləğv edilməsi və ya bərpasını həyata keçirdiyi (və ya bu barədə müvafiq qərar qəbul etdiyi) gün müvafiq qərarı və ya sistemdə statusun dəyişdirilməsinə dair rəsmi bildirişi (məlumatı) təsərrüfat subyektinə təqdim edir və ya sifarişli poçt vasitəsilə göndərir.

4. Yekun müddəa

Keyfiyyət informasiya sistemi vasitəsilə yaradılmayan və qeydiyyatı aparılmayan xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarın, habelə onun qüvvəsinin dayandırılması, bərpası və ləğvi barədə qəbul edilmiş qərarların istifadəsinə yol verilmir.

“Texniki reqlamentlərin tələblərinə uyğunluğa dair xarici dövlətlərdə verilmiş uyğunluq sənədlərinin tanınması Qaydası”na

1 nömrəli əlavə

Uyğunluğu qiymətləndirən qurumun rəhbərinə _____

UYĞUNLUQ SERTİFİKATININ TANINMASI ÜÇÜN ƏRİZƏ		
Sizdən _____ üçün uyğunluq sertifikatını tanımağınızı xahiş edirik,		
(malın adı, növü, modeli, markası)		
_____ tərəfindən istehsal edilmişdir,		
(istehsalçının adı, ünvanı)		
_____ sınaqdan keçirilmişdir,		
(sınaq laboratoriyasının adı, ünvanı)		
_____ tələblərinə uyğunluq üçün		
(sertifikatlaşdırmanın aparıldığı sənədin işarəsi, adı)		
Uyğunluq sertifikatı _____ tərəfindən verilmişdir.		
(sertifikatı vermiş akkreditasiya edilmiş orqanın (təşkilatın, şirkətin) adı)		
_____		
(ünvan)		
_____ qaydalarına uyğun olaraq		
(sertifikasiya sisteminin adı və ya müqavilə nömrəsi)		
_____ _____ qədər olan müddət üçün.		
Əlavə məlumatlar _____		
(keyfiyyətin idarə edilməsi sisteminin sertifikatı və s.)		
Ərizəyə əlavə olunur _____		
(sənədlərin siyahısı)		
Ərizəçinin adı, ünvanı və VÖEN _____		
Ərizəçinin telefonu/faksı _____		
_____	_____	_____
(rəhbər, onun səlahiyyətli nümayəndəsi)	(imza)	(S.A.A.)
		“____” _____ 20___ il

“Texniki reqlamentlərin tələblərinə uyğunluğa
dair xarici dövlətlərdə verilmiş uyğunluq
sənədlərinin tanınması Qaydası”na

2 nömrəli əlavə

Uyğunluğu qiymətləndirən qurumun
rəhbərinə _____

UYĞUNLUQ BƏYANNAMƏSİNİN TANINMASI ÜÇÜN ƏRİZƏ		
Sizdən _____ üçün uyğunluq bəyannaməsini tanımağınızı xahiş edirik,		
(malın adı, növü, modeli, markası)		
_____ tərəfindən istehsal edilmişdir,		
(istehsalçının adı, ünvanı)		
_____ sınaqdan keçirilmişdir,		
(sınaq laboratoriyasının adı, ünvanı)		
_____ tələblərinə uyğunluq üçün		
(sertifikatlaşdırmanın aparıldığı sənədin işarəsi, adı)		
Uyğunluq bəyannaməsi _____ tərəfindən qeydiyyata alınıb.		
(uyğunluq bəyannaməsini qeydə almış akkreditasiya edilmiş orqanın (təşkilatın, şirkətin) adı)		
_____ (ünvan)		
_____ qaydalarına uyğun olaraq		
(sertifikasiya sisteminin adı və ya müqavilə nömrəsi)		
_____ _____ qədər olan müddət üçün.		
Əlavə məlumatlar _____		
(keyfiyyətin idarə edilməsi sisteminin sertifikatı və s.)		
Ərizəyə əlavə olunur _____		
(sənədlərin siyahısı)		
Ərizəçinin adı, ünvanı və VÖEN _____		
Ərizəçinin telefonu/faksı _____		
_____ (rəhbər, onun səlahiyyətli nümayəndəsi)	_____ (imza)	_____ (S.A.A.)
		“____” _____ 20___ il

“Texniki reqlamentlərin tələblərinə uyğunluğa
dair xarici dövlətlərdə verilmiş uyğunluq
sənədlərinin tanınması Qaydası”na

3 nömrəli əlavə

Xarici mənşəli uyğunluq sənədinin tanınması barədə QƏRAR **Nömrəsi: XXXXXXX**	
1. Xarici mənşəli uyğunluq sənədinin qeydiyyat nömrəsi (olduqda)	2. Xarici mənşəli uyğunluq sənədinin verilmə tarixi (olduqda)
3. Xarici mənşəli uyğunluq sənədinin qüvvədə olduğu müddət (olduqda)	4. Tanınma barədə qərar qəbul etmiş uyğunluğu qiymətləndirən qurumun adı, hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi
5. Tanınma barədə müraciət etmiş hüquqi şəxsin adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və VÖEN-i	
6. Xarici texniki reqlament və ya digər xarici texniki normativ hüquqi aktlar barədə məlumat, həmçinin bu sənədlərdə nəzərdə tutulduğu hallarda malın saxlanma müddəti və şərtləri	
7. Malın istehsalçısının adı və ünvanı	
8. Malın adı, növü, markası, modeli, partiya və ya seriya nömrəsi	9. Məhsul növləri üzrə təsnifat kodu
10. Malın miqdarı	11. Malın istehsal tarixi
12. İstifadə sahəsi	
13. Xarici iqtisadi fəaliyyətin mal nomenklaturu	
14. Malın istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair təsərrüfat subyekti tərəfindən verilən əlavə məlumatlar (olduqda)	
15. Tanınmış xarici mənşəli uyğunluq sənədlərinin Azərbaycan Respublikasında qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi barədə məlumatlar	

_____